# Yardımlının yardıma ehtiyacı var

**Son vaxtlar Yardımlı rayonunda bir-birindən maraqlı və çeşidli mədəni tədbirlər keçirilir, mədəniyyətin inkişafı və təbliği istiqamətində mühüm işlər görülür.Bəri başdan qeyd edək ki, bütün bunlar Ayaz Əliyevin rayon mədəniyyət və turizm şöbəsinin müdiri vəzifəsində çalışdığı qısa dövrə təsadüf edir.**

Doğrudur, hələ qarşıda görüləsi işlər, problemlərin həlli, nöqsanların ləğvi üçün həyata keçiriləsi tədbirlər yetərincədir. Bunlar illərdən bəri yığılıb qalmış çatışmazlıqlardır. Təbii ki, onları qısa zaman kəsiyində aradan qaldırmaq mümkün deyil. Amma şöbə müdiri ilə ərazini gəzə-gəzə etdiyimiz söhbət, planlaşdırılan layihələr bizdə belə bir inam hissi aşıladı ki, məqsədə çatılacaq an o qədər də uzaqda deyil.

Ayaz Əliyevin mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, əhaliyə göstərilən mədəni xidmətin səviyyəsinin yüksəldilməsi, milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və təbliğ olunması, gənc istedadların aşkara çıxarılması, adamların asudə vaxtlarının səmərəli təşkili sahəsində görülən işlər barədə söhbətini siz də dinləyin.

### Maddi-texniki baza

Son illərdə mədəniyyət müəssisələrinin maddi-texniki bazasının yaxşılaşması daha çox diqqət mərkəzində olmuşdur. 2004-2008-ci illərdə rayonda Heydər Əliyev muzeyi, tarix-diyarşunaslıq muzeyi tikilib istifadəyə verilmiş, rayon kinoteatrının binasında əsaslı təmir işləri aparılmışdır. Rayonda Heydər Əliyev parkı, yeni şəhər parkı salınmış və əhalinin asudə vaxtının səmərəli təşkili üçün əhəmiyyətli işlər görülmüşdür. 2008-ci ildə mərkəzi kitabxananın bir hissəsi əsaslı təmir olunmuş və 2009-cu ildə təmir işi tam başa çatdırılacaqdır. Son illər 8 kənd kitabxanasının, 5 kənd klubunun bina şəraiti daxili imkanlar və yeni tikilən məktəblər hesabına yaxşılaşmışdır. Qəza vəziyyətində olan uşaq musiqi məktəbi nisbətən uyğunlaşdırılmış bina ilə əvəz olunmuşdur. Müəssisələr müasir inventar və avadanlıqlarla təmin olunmuş, 2008-ci ildə 8 dəst kompyuter alınaraq müəssisələrə verilmişdir. MKS-də kompyuter otağı yaradılmış və elektron kataloqun hazırlanması işinə başlanılmışdır. 2009-2013-cü illərdə kitabxana-informasiya sahəsinin inkişaf etdirilməsi ilə əlaqədar Prezident sərəncamının həyata keçirilməsi istiqamətində tədbirlər davam etdirilir. 2 tarixi abidənin görkəminə xələl gətirməməklə ətrafında abadlıq işləri aparılmışdır. Bütün bunlar rayon icra hakimiyyətinin köməyi və dəstəyi nəticəsində mümkün olmuşdur.

### Tədbirlər

Mədəniyyət müəssisələri ənənəvi tədbirlərlə yanaşı son illər bir sıra maraqlı tədbirlər də keçirmişlər. Qeyd etmək istəyirəm ki, nazirliyimizin keçirdiyi respublika müsabiqələrinin əksəriyyətində özfəaliyyət kollektivlərinin üzvləri fəal iştirak etmişlər. Kənd klub və mədəniyyət evlərində mövcud olan formal dərnək və kollektivlər ləğv edilmiş, əvəzində insanları cəlb edən və maraqlandıran yeni dərnəklər yaradılmışdır. Hazırda şəhər mədəniyyət evində ingilis dili kursları və internet klub yaradılmasına hazırlıq işləri görülür və yaxın günlərdə bu dərnəklər fəaliyyətə başlayacaqdır. Sərhəd zastavaları ilə bağlı tədbirlər üstünlük təşkil edir. 2009-cu ilin uşaq ili elan edilməsi ilə əlaqədar rayonun təhsil, idman və gənclər idarələri ilə birgə geniş tədbirlər planı hazırlanmışdır. Bu ilin fevral ayında şəhər mədəniyyət evində "Dünya uşaqların gözü ilə" maraqlı rəsm müsabiqəsi, aprel ayının 4-də 15 yaşadək uşaqlar arasında ən yaxşı ifaçı müsabiqəsi təşkil olunmuşdur. May ayında Heydər Əliyev muzeyində və tarix-diyarşunaslıq muzeyində məktəblilərlə maraqlı görüşlər təşkil edilmişdir. Kənd klub və mədəniyyət evlərində nəfəsli, simli və zərb alətləri üzrə rayon müsabiqəsinin 1-ci mərhələsi keçirilmişdir. Müsabiqənin rayon turu 28-30 aprel tarixlərində şəhər mədəniyyət evində olmuşdur.



### Mədəni irs

Mədəni irsin qorunması və təbliği işinə nəzarət artmışdır. Dövlət mühafizəsinə alınmış 92 abidənin hər biri barədə ətraflı məlumatlar toplanmış, şəhər mədəniyyət evində abidələrin böyük fotostendi təşkil olunmuşdur. Yeni aşkar olunmuş 3 abidə barədə nazirliyə məlumat verilmişdir. Onların turizm baxış obyektinə çevrilməsi məqsədilə yolların abadlaşdırılması işləri görülür.

### Turizm

Rayonun turizm imkanları daha böyükdür. Təbii coğrafi şərait dağ turizminin, yaşıl kənd turizminin, ekoturizmin inkişaf etdirilməsi üçün olduqca əlverişlidir. İlbəil rayona gələn turistlərin sayı artır. Ona görə də turizmin inkişafı ilə bağlı rayon rəhbərliyi geniş işlər planlaşdırmışdır. Özəl turizm obyektlərinin tikintisinin genişləndirilməsi, infrastrukturun yaradılması diqqət mərkəzindədir. Artıq bu istiqamətdə müəyyən torpaq sahələri ayrılmışdır. Turizm marşrutunun əsas istiqamətləri işlənərək nazirliyə təqdim olunmuşdur. Hazırda turistləri maraqlandıran bukletin hazırlanması üzərində işləyirik.

### Problemlər, təkliflər

Mədəniyyət müəssisələrinin fəaliyyətində problemlər və həllini gözləyən məsələlər də mövcuddur. Müəssisələrin maddi-texniki bazası zəifdir. Klub və kitabxanaların əksəriyyətinin yenidən tikilməsinə və əsaslı təmirə ehtiyacı vardır. İxtisaslı kadrlar çatışmır. Uşaq musiqi məktəbi və şəhər mədəniyyət evinin tikilməsi zərurəti yaranıb. Mədəniyyət və Turizm Şöbəsində nəqliyyat vasitələrinin olmaması qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində çətinlik yaradır və s. və i. a.

Bunlar səmimi etiraflardır. Amma ümidimizi üzmürük. Fürsətdən istifadə edib nazirliyimizi əmin edirik ki, mədəniyyət müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılması üçün bütün imkanlardan istifadə edəcək, milli-mənəvi dəyərlərimizin təbliği, mədəniyyətimizin inkişaf etdirilməsi sahəsində qarşıda duran vəzifələrin yerinə yetirilməsinə səy göstərəcəyik...

● TURAL